

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# MİNARƏNİN KÖNÜL DUYĞULARI

**Minarə Bağırlını demək olar ki, tanımıram və görməmişəm də. Ancaq bir gün dostum Musa Ələkbərli onun yenicə çapa hazırlanan şeirlər kitabının əlyazmasını mənə verdi. Və mən bu əlyazmadakı şeirləri oxuyandan sonra Minarə Bağırlını tanıdım və hətta gördüm. Heç üzünü görmədiyin bir şairi tanımaq üçün onun şeirlərini oxumaq kifayətdir.**

Minarə Bağırlının bütün şeirləri heca vəznindədir və hamısı qoşma və gəraylı janrlarında qələmə alınıb. Şairləri bir vəznə və bir şeir formasına meyl etdiyi üçün qınamaq olmaz.

Məsələn, Xalq şairimiz Nəriman Həsənzadə və mərhum deməyə dilim gəlmədiyi İlyas Tapdıq bütün yaradıcılıqları boyu həmişə hecaya meyl etmişlər və sərbəstdə, əruzda heç nə yazmasalar da, onların bir çox şeirləri Azərbaycan poeziyasının inciləridir.

Müasir poeziyamızda qoşma yazanların sayı hədsiz-hesabsızdır. Təbii ki, busay çoxluğu heç də keyfiyyət, əla qoşma səviyyəsi demək deyil. Yaxşı qoşmaların sayı ortabab və zəif qoşmaların sayından azdır. Bunu gəraylılar haqqında da demək olar. Nə etmək? Yalnız əsl qoşma nümunələri ilə üzləşəndə sevinə bilərik və Minarə Bağırlının şeirləri-yazdığı qoşmalar və gəraylılar, bu qədim Azərbaycan şeir formalarına rəğbətimizi artıran nümunələr kimi diqqəti cəlb etdi.

***Mən bir oxucu və tənqidçi kimi Molla Pənah Vaqifin, Aşıq Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın, Aşıq Ələsgərin, Aşıq Alının, Dədə Şəmşirin, müasirlərimizdən Hüseyn Arifin, Hüseyn Kürdoğlunun, Məstan Günərin, Məmməd Aslanın, Məmməd İlqarın, Musa Ələkbərlinin və əlbəttə, bizim ünlü şairlərdən Bəxtiyar Vahabzadənin, Qasım Qasımzadənin, Qabilin, Əliağa Kürçaylının, Nəbi Xəzrinin, Məmməd İsmayılın, Musa Yaqubun da gözəl qoşmalarını, gəraylılarını sevə-sevə oxumuşam. Ümumiyyətlə, qoşma və gəraylı yazmaq bəzilərinə asan görünür, çünki bu janrın müəyyən qəlibi var, həcmi var və sən 3-5 bənddə fikir və duyğularını o qəlibə sığışdıra bilərsən. Amma... məsələ bu "amma"dadır.***

Minarə Bağırlı bu "amma" körpüsündən uğurla adlamış və müasir Azərbaycan qoşmasının və gəraylısının bir sıra gözəl nümunələrini yarada bilmişdir. Onun qoşmalarını oxuduqca səni Qurbanidən, Abbas Tufarqanlıdan, Xəstə Qasımdan, ustad Ələsgərdən gələn o saflıq, incəlik, zəriflik, dilin gözəlliyi bir meh kimi səni özünə çəkir.

***Anla bu həyatı, ey qafil insan,***
***Tanrı yazdığını poza bilməzsən!***
***Alın yazısını yaradan yazır,***
***Sən bircə kəlmə də yaza bilməzsən!***

***Mənəm, mənəm deyib döşünə döymə,***
***Zəifin yanında özünü öymə,***
***Çalış ki, heç kəsin qəlbinə dəymə,***
***Düşərsən alova, közə bilməzsən.***

Bu qoşmanı oxuyursan və sanki neçə əsr bundan əvvəl ustad aşıqlarımızın yazdığı ustadnamələr, moralist şeirlər yada düşür. Və Minarə Bağırlının əksər şeirlərində onun klassik aşıq poeziyasına bələdliyinə şübhə eləmirsən. Əlbəttə, ustadlardan öyrənmək olar və lazımdır, bir şərtlə ki, onları təqlid etməyəsən, öz qoşma və gəraylılarında müasir dövrün ahənginə uyğun təzə söz deyəsən. Minarə Bağırlı bunu bacarır. Nədən yazır Minarə Bağırlı? Onu nə düşündürürsə, o mətləbdən, o məsələdən yazır. Vətən sevgisindən, doğulduğu torpağın gözəlliyindən, ata-anaya məhəbbətindən, həyatın, real dünyamızın hadisə və olaylarından, gözəlliklərdən və əlbəttə sevgidən, qəlbi ehtizaza gətirən məhəbbətdən. Və çalışır ki, nədən yazır-yazsın, təzə söz desin, həm şeirində ifadə olunan fikirlə, həm də bu fikirin poetik ifadəsiylə oxucunu sevindirə, həyəcanlandıra bilsin.Onun şeirlərində Allaha bir inam var…

***Ürəyimdə dürlü-dürlü yaram var,***
***Təbibim ol, gəl yaramı bağla sən.***
***Ablamaq heç kimə xoş gün gətirməz,***
***Azca kövrəl, az sızılda, ağla sən.***

***Haram qatma çörəyinə, duzuna,***
***Yalan qatma sən doğruna, düzünə,***
***Min yol sına, yaxşı dostdan özünə,***
***Düşmənlərin ürəyini dağla sən.***

***Qohum yaddır dəyərini bilməsə,***
***Dost dönükdür kədərini bölməsə,***
***Ay Minarə, arxalanma heç kəsə***
***Ümidini tək Tanrıya bağla sən!***

Minarə Bağırlının sevgi şeirlərində yaşanılmış hisslər öz əksini tapır.Hiss edirsən ki, onun lirik qəhrəmanı-sevən qadın sevgini insan həyatının mənası hesab edir, sevgisiz yaşamaqdansa, yaşamamağı üstün tutur.

***Daha darıxmıram səndən ötəri***
***Gözlərim sən gedən yoldan yığılıb.***
***Elə ucuz tutdun məhəbbətimi,***
***Sanki çöldə bitib, koldan yığılıb.***

***Daha çiçək açmır çəmənim, düzüm,***
***Qarışıq düşübdü gecəm, gündüzüm,***
***Solub, saralıbdı gülüm, nərgizim,***
***Sonalar uçuşub, göldən yığılıb.***

Əlbəttə, sevgi şeirlərində bütün zamanlarda kədərin, qəmin üstün olduğu məlumdur. Ancaq buna görə şairləri qınamaq olmaz.

Elə məhəbbətin özülü də ayrılıqdan, həsrətdən, hicrandan yoğrulub. Amma nikbinliyi də unutmayaq.

***Minarəyəm, məhəbbətlə çağlaram,***
***Qüdrətimlə çoxlarını dağlaram,***
***Ümidimi yaradana bağlaram,***
***Dərdimi onunla bölməliyəm mən,***
***Sevgidən yarandım, sevməliyəm mən.***

Minarə Bağırlı poeziyamızda çox işlənən mövzulara müraciət edəndə də çalışır ki, təzə söz desin, şeirdə ifadə tərzinin yeniliyi ilə seçilsin. Məsələn, "Dünya" mövzusunda Azərbaycan poeziyasında yüzlərlə şeirlər var. Minarə Bağırlı da, dünyaya müraciətlə bir qoşma yazıb və özüylə dünya arasında anlaşmanı yaratmaq istəyib.

***Durmuşam önündə səssiz-səmirsiz,***
***Nə qədər vurursan, vur məni dünya!***
***Bircə ümidimi alma əlimdən,***
***Yoxuşdlu yollarda yor məni, dünya!***

Minarə Bağırlı qoşmaları, gəraylıları ilə neçə əsrin poetik ənənələrinə bağlıdır, amma onun şeirlərində fikirlər, duyğular XX-XXI əsrlərin insanına xas olan fikirlər, duyğulardır.

Minarə xanım bu günün reallıqları ilə yaşayır, belə bir dövrdə var-dövlət əsiri olanlara, mala-mülkə bel bağlayanlara, şöhrət əsirlərinə, mənəviyyatca pozulmuş insanlara qarşı şair qəzəbini gizlətmir. Və bir cəhəti də qeyd edim.

Minarə Bağırlının şeirləri dilimizin saflığını, incəliyini, zərifliyini özündə əks etdirir. Demək olar kt, bu baxımdan qüsurları yoxdu.

Və sözümün sonunda Minarə Bağırlının vətənpərvərlik ruhu ilə aşılanan "Yol gözləyir Qarağabım" şeirindən bu misralarla bitirmək istəyirəm. Çünki bu şeirdəki fikir hamının ürəyincədir:

***Alın şəhid qisasını,***
***Sevindirin anasını,***
***Yağıların yuvasını,***
***Siz eyləyin darmadağın,***
***Yol gözləyir Qarabağım***

***Alın Şuşanın dağını,***
***İçin sərin bulağını***
***Ora sancsın bayrağını,***
***Dalğalansın qoy bayrağım,***
***Yol gözləyir Qarabağım!***

**Qarabağ isə artıq işğaldan azad olundu, Minarə xanım!**

ədalət.- 2020.- 19 dekabr.- S.15.